Azərbaycan.- 2021.- 31 mart. S. 1; 7.

# Rusiya ermənilərinin rəhbəri Paşinyana qarşı mübarizəyə qoşulur

Ermənistanda növbədənkənar parlament seçkilərinə iki aydan artıq müddətin qalmasına baxmayaraq, seçkiqabağı proseslər indidən gərgin xarakter alıb.

Məsələ ondadır ki, son günlərədək ölkədəki siyasi qüvvələrin sosial bazası baş nazir Nikol Paşinyanın qələbə şansının yüksək olduğunu göstərib. Amma Rusiya erməniləri ittifaqının rəhbəri Ara Abramyanın seçkilərdə iştirak edəcəyini bildirməsi vəziyyəti dəyişdirə bilər.

A.Abramyan deyib ki, Ermənistan indi uçurum qarşısındadır və bu səbəbdən seçkilərdə iştirak edəcək. Onun sərvətinin çox olması isə seçkilərdə Paşinyanın istədiyi səsləri almasına ciddi maneə kimi qiymətləndirilir. “Mən Ermənistana gedəcək və növbədənkənar seçkilərdə aktiv iştirak edəcəyəm. Mən özümü günahkar sayıram, çünki mübarizə aparmadım, soruşmadım ki, o kimdir, haradan gəlib?”, - deyə Paşinyanı nəzərdə tutan erməni milyarder qeyd edib.

Tezliklə öz proqramını açıqlayacağını deyən Abramyan erməni diasporuna müraciət edərək onları fəal olmağa və birləşməyə çağırıb: “Paşinyanın seçkilərdə iştirak etmək üçün mənəvi haqqı yoxdur, əminəm ki, o, heç bir səs də qazana bilməz, çünki bizim xalq müdrikdir. Sadəcə olaraq xalqa situasiyanı düzgün izah etmək lazımdır. Xalq düşünməlidir ki, səsini kimə və niyə verir. O, deyirdi ki, xalqını sevir, bəs nə oldu? Xalqını, vətənini sevən adam onu heç vaxt ağ-qaraya bölməz”.

Yerevanda aylardır davam edən aksiyalar isə daha gərgin və həlledici mərhələsinə qədəm qoyub. Etiraz edənlərin indiki tələbi seçkilərin keçirilməməsi və Paşinyanın hakimiyyətdən getməsidir. Söylənilənlərə görə, bu, baş verməsə, Ermənistanda vətəndaş müharibəsi qaçılmaz olacaq. “İravunk” qəzetinin bununla bağlı məqaləsində qeyd olunur ki, aksiyanın əsas fəalları kütləvi etirazlara çağırışlarına görə həbs olunub. Onların ailə üzvləri işdən çıxarılıb.

*Ardı 7-ci səh.*

# Rusiya ermənilərinin rəhbəri Paşinyana qarşı mübarizəyə qoşulur

*Əvvəli 1-ci səh.*

Ermənistanın "Daşnaksütyun" partiyası Ali Şurasının üzvü, "Vətənin qurtuluşu hərəkatı"nın koordinatoru İşxan Saqatelyan polis zorakılığı ilə bağlı məlumat yayıb. O, polislərin qardaşı oğluna qarşı zor tətbiq etməsinə dair video paylaşıb. Saqatelyan zorakı metodların faydasız olacağını deyib: "Yerevanın mərkəzindəki mitinqdən sonra qardaşım oğluna hücum ediblər və daha sonra onu saxlayıblar. Nikol, bizə zorakılıqla zülm edə biləcəyini düşünmə. Bu heç bir nəticə verməz... Unutmayın, tezliklə hamınız bir-bir cavab verəcəksiniz".

Siyasi müstəvidə böyük problemlər yaşayan Ermənistanda əhalinin sosial durumu ağırdır, insanlar hətta gündəlik qida məhsullarına olan tələbatlarının ödənilməsində belə çətinliklərlə üzləşirlər. Yaranmış vəziyyətdə onsuz da sayı az olan iş yerlərinin bağlanması isə problemlərin miqyasının daha da genişlənməsinə rəvac verir. Təbii ki, bu da vətəndaşlarda hakimiyyətdən olan narazılığı daha da artırır, insanlar baş verənlərə ən sərt formada etirazlarını bildirirlər.

Bu günlərdə Yerevanın mərkəzindəki Respublika meydanında işsiz kişi etiraz aksiyası keçirib və öz ağzını tikib. Manvel Yeranosyan adlı bu şəxs aclıq elan edib və iş yerinə bərpa olunmasını istəyib. Lakin onun səsini eşidən olmayıb.

"İravnuk" qəzeti vəziyyətin ağırlığını göstərən daha bir amil kimi Yerevan bazarlarında alıcıların sayının gündən-günə azalmasını göstərir. Bunu bazardakı satıcılar da təsdiqləyir və narazılıqlarını bildirirlər. Onlardan biri qeyd edir: "Xalqın alıcılıq qabiliyyəti yoxdur. İş və əldə pul yoxdur, vəziyyət tamamilə iflic olub. Adamlar heç nə almaq imkanında deyillər. Əgər hökumət belə siyasət yürütməkdə davam edəcəksə, Ermənistan tamamilə boşalacaq".

Digər satıcı da qiymətlərin yüksək olması, pulun yoxluğu səbəbindən vəziyyətin bu kökə düşdüyünü bildirib: "Adamlar gəlirlər, baxıb gedirlər, yaxud çox az şey alırlar". Üçüncü satıcı əlavə edib: "Bütün xalq Moskvaya yollanır. Axşamlar pəncərədən baxırsan, evlərdə işıq da yanmır. Bütün hökumətlərin zamanında xalq bu çuxurdan çıxa bilməyib. Hökumətdən isə heç bir gözlənti yoxdur. Yalnız özümüzdən nəsə gözləyirik".

Göründüyü kimi, Ermənistanda siyasi, sosial-iqtisadi vəziyyət ağır olaraq qalmaqdadır. İşğal siyasətinin qurbanı olan bu ölkə indi öz mövcudiyyətinin ən ağır dövrünü yaşayır.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***